

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 127 (21.537)

13 iyul 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## S.K.Məmmədovanın Naxçıvan Tibb Kollecinin direktoru təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sona Keykavus qızı Məmmədova Naxçıvan Tibb Kollecinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 iyul 2016-cı il*

## Torpaq sahələrinin su təminatı yaxşılaşdırılır



***Muxtar respublikada suvarılan torpaq sahələrinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarmada mütərəqqi metodlardan istifadə və suvarma sistemlərinin faydalı iş əmsalının artırılması bu ilin ötən dövründə də diqqət mərkəzində saxlanılmışdır. Qeyd olunan dövrdə su anbarlarına 277 milyon kubmetrdən artıq su yığılmış, şoranlaşma və bataqlaşmanın qarşısını almaq üçün 88 kilometr magistral kanal, 297 kilometr ara arxları və 18 kilometr kollektor lildən təmizlənmiş, 39,4 kilometr yeni suvarma xətti çəkilmişdir.***

Son illər muxtar respublikada yeni suvarma şəbəkələrinin qurulması diqqət mərkəzində saxlanılır. Mənbəyini Arpaçay sol sahil kanalından götürən və ümumi uzunluğu 3 kilometr olan suvarma boru xəttinin tikintisi başa çatdırılmış, Şərur rayonunun Xanlıqlar, Vərməziyar və Ələkli kəndlərində 589 hektar ərazinin su təminatı yaxşılaşdırılmışdır. Babək rayonunun Badaşqan kəndinin torpaq sahələrinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq üçün nasos stansiyası və yeni təzyiqli boru xətti tikilmişdir. Hazırda Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin 107 hektar sahəsində qapalı suvarma şəbəkəsi qurulur. Ötən dövrdə 359 subartezian quyusunda da təmir işləri aparılmış, 8 kəhrizin təmir-bərpası başa çatdırılmışdır. Yaşayış məntəqələrinin və əkin sahələrinin sel sularının təsirindən yuyulmasının qarşısını almaq məqsədilə tədbirlər görülmüş, selov və çay vadilərində selə qarşı 7,87 kilometr istiqamətləndirici bənd salınmış, Araz çayında 3048 metr sahilbərkitmə işi görülmüşdür.

Muxtar respublikada əhalinin içməli su təminatını yaxşılaşdırmaq da daim diqqət mərkəzində saxlanılır. Ötən dövrdə Ordubad rayonunun Parağa, Babək rayonunun Aşağı Buzqov və Kəngərli rayonunun Şahtaxtı kəndlərində sakinləri keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə yeni kaptajlar tikilmiş, su xətləri çəkilmişdir. "Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində isə Naxçıvan şəhərinin Qaraçuq, Qaraxanbəyli, Bulqan və Tumbul kəndlərində, Babək rayonunun Şıxmahmud kəndində, Culfa və Şahbuz rayonlarında, ümumilikdə, müxtəlif diametrli borularla 158,64 kilometr kanalizasiya xətti və 199,18 kilometr içməli su xətti çəkilmiş, 6164 ev kanalizasiya şəbəkəsinə, 4725 ev isə su şəbəkəsinə qoşulmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## "Bələdiyyə orqanlarında qanunvericiliyin tətbiqi ilə bağlı görülən işlər" mövzusunda seminar-müşavirə

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Naxçıvan şəhərində bələdiyyə nümayəndələrinin iştirakı ilə seminar-müşavirə keçirib. Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb.***

Seminar-müşavirədə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev məruzə edərək bildirib ki, yerli əhəmiyyətli məsələlərin həllində artıq bələdiyyələrin konkret iş görmək təcrübələri və özlərinə inamları güclənib. Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq bələdiyyə sədrlərinin və bələdiyyə qulluqçularının iştirakı ilə şəhər və rayonlarımızda maarifləndirici tədbirlər – seminar-müşavirələr keçirilir. Bələdiyyə orqanlarına qanunvericiliyin tələblərindən irəli gələn vəzifələrin düzgün və dürüst yerinə yetirilməsi üçün "Yerli vergi və ödənişlərin yığılması, əmlak vergisinin hesablanması, subvensiyaların alınması və digər məsələlərlə bağlı qəbul edilmiş yeni qanunlara dair", "Torpaq sahələrinin zəbt edilməsi halları ilə mübarizə aparılması üçün tədbirlər görülməsi barədə", "Bələdiyyə mülkiyyətində olan torpaq sahələrinin təyinatına uyğun idarə edilməsi barədə" və sair mövzularda son 3 ildə 17-yə yaxın metodik vəsait hazırlanaraq göndərilib. Eləcə də onlar bələdiyyə fəaliyyəti ilə bağlı ədəbiyyatlarla təmin ediliblər. Lakin keçirilən maarifləndirici tədbirlərə, göstərilən metodik köməkliklərə baxmayaraq, hələ də bəzi bələdiyyələrin fəaliyyətində nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Bunun üçün də hər bir bələdiyyənin vəzifəli şəxsi işlərində daha məsuliyyətli olmalı, bələdiyyənin kargüzarlıq işlərini düzgün qurmalı, bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsinə diqqəti artırmalı, habelə bələdiyyə torpaqlarının zəbt olunmasının qarşısını almaqla əhali arasında maarifləndirmə işləri aparmalıdır.

Vurğulanıb ki, bələdiyyə torpaqlarından səmərəli istifadə olunması və bu sahədə hüquq pozuntularının baş verməməsi xüsusilə diqqət mərkəzində saxlanılıb, bələdiyyələrə zəruri metodik köməkliklər göstərilib. Bu gün bələdiyyə mülkiyyətində olan torpaqlar Azərbaycan Respublikasının torpaq qanunvericiliyinə, "Bələdiyyə əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanunu və torpaq münasi-



bətlərini tənzimləyən digər normativ-hüquqi aktlara uyğun olaraq mülkiyyətə və ya icarəyə verilir. Aparılan araşdırmaların nəticələrinə əsasən, bələdiyyə ərazilərində torpaqlardan istifadə və onların idarə olunmasında nöqsanlara yol verilib. Bələdiyyə üzvlərinin hüquqi biliklərinin az olması, qanunvericiliyi düzgün mənimsəməmələri və işə laqeyd münasibəti nəticəsində bələdiyyə torpaqlarının zəbt olunması, qanunsuz tikinti aparılması, torpaqların kateqoriyalarının qanunsuz dəyişdirilməsi faktlarına rast gəlinir. Ona görə də bələdiyyələr torpaqların mülkiyyətə verilməsi, eləcə də torpaqların icarəyə verilməsilə bağlı müqavilələrin bağlanması zamanı qanunun tələblərinə əməl etməlidirlər.

Sonda buraxılan nöqsanların aradan qaldırılması ilə bağlı müzakirələr aparılıb, bələdiyyə nümayəndələrinin suallarına aydınlıq gətirilib, seminar-müşavirə iştirakçılarına "Yerli özünüidarə ilə bağlı hüquqi aktlar toplusu" və "Bələdiyyələrin maliyyə hesabatlarının tərtibinə dair məsələlər toplusu" adlı maarifləndirici vəsaitlər təqdim olunub.

**✍ Kərəm HƏSƏNOV**

## Bu ilin ötən dövründə muxtar respublikada 2827 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının müvafiq bəndlərinin icrası, sessiya və müşavirələrdə verilmiş tapşırıqların yerinə yetirilməsi 2016-cı ilin birinci yarısında Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmışdır. Hesabat dövründə muxtar respublika üzrə 1402 torpaq sahəsi, 36 qeyri-yaşayış binası, 42 qeyri-yaşayış sahəsi, 452 mənzil, 886 fərdi yaşayış evi, 6 əmlak kompleksi kimi müəssisə, 3 çoxmərtəbəli yaşayış binası olmaqla, 2827 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır.***

Təsdiq olunmuş qrafik əsasında vətəndaşlara səyyari xidmətin göstərilməsi davam etdirilmiş, Şahbuz, Culfa, Şərur, Ordubad, Babək və Kəngərli rayonlarının 48 yaşayış məntəqəsindən 547 vətəndaşın müraciətinə baxılmışdır. Hesabat dövründə komitənin müvafiq sektoru və yerli idarələri tərəfindən hazırlanmış 3010 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilmişdir. Həmçinin komitənin göstərdiyi elektron xidmətlər üzrə daxil olan 193 müraciət cavablandırılmış, İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə mütəmadi nəzarət olunmuşdur.

Muxtar respublikanın Ordubad rayon inzibati ərazi vahidinin tərkibinə daxil olan 22 bələdiyyənin ərazisində həyətyanı və pay torpaq sahələri ortofotoplana əsasən dəqiqləşdirilmiş, mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron torpaq kadastr xəritələri hazırlanmış, kadastr xəritələrinin məlumatları ilə torpaq reyestrində saxlanılan məlumatların uyğunluğu yoxlanılmış və uçotu aparılmışdır. Babək rayonunun 7, Şərur rayonunun 1 kəndinin ərazisində həyətyanı torpaq sahələrinin yenidən xəritələşməsi ilə əlaqədar aparılan planalma işləri başa çatdırılmışdır.

Babək rayonunun 18 bələdiyyəsinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanmışdır. Naxçıvan şəhərinin 1, 2, 3 və 4 nömrəli sahə inzibati ərazi dairələrinin, Babək rayonunun Göynük və Nehrəcir kəndlərinin inzibati ərazi dairələrinin və inzibati ərazi vahidlərinin abris və xəritələrində düzəlişlər edilərək yenidən hazırlanmışdır. Naxçıvan şəhəri, Şahbuz, Babək, Şərur, Sədərək və Kəngərli rayonları üzrə bütün bələdiyyələrin xəritələrinin hazırlanması başa çatdırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Əməyin mühafizəsinin təşkili diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən 2016-cı ilin ilk 6 ayı ərzində tikinti və istehsal müəssisələri üçün təhlükəsiz əmək şəraitinin yaradılması, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri və xüsusi geyimlə təmin olunması və həmin vasitələrdən istifadə edilməsi, həmçinin işçilərin hüquqlarının qorunması məqsədilə qanunvericiliyə uyğun olaraq əmək münasibətlərinin rəsmiləşdirilməsi istiqamətində bir sıra işlər görülüb.***

Xidmətdən verilən məlumata görə, qeyd olunan dövrdə işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsi ilə əlaqədar 32 müəssisə və tikinti sahəsində nəzarət həyata keçirilib, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 41 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb, 84 işçi isə həmin vasitələrlə yerində təmin olunub.

Cari ilin 6 ayı ərzində işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının real göstərilməsinə nəzarət məqsədilə 336 sahibkarlıq obyektinə baxış keçirilib, 196 işçi ilə yeni əmək münasibətlərinin rəsmiləşdirilməsinə, 865 halda isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunub. Həmçinin nəzarət zamanı "İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icbari sığorta müqaviləsi bağlanmadığı aşkar edilən 196 işçinin siyahısı müvafiq tədbirlər görülməsi üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinə göndərilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə tikinti aparılacaq meydançalarda müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılmasına nəzarət məqsədilə, ümumilikdə, 29 tikinti sahəsinə baxış keçirilib və müvafiq akt tərtib olunaraq həmin tikinti sahələrində inşaat işlərinə başlanmasına razılıq verilib.

Məlumatda o da bildirilir ki, kadr işləri və əməyin mühafizəsi üzrə mütəxəssislərin peşəkarlığını artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" mövzusunda 3, "İş yerində əməyin mühafizəsi qaydalarına əməl edilməsi" mövzusunda 1 maarifləndirici kurs təşkil olunub.

28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə istehsalat xüsusiyyətləri nəzərə alınmaqla, 6 müəssisədə əməyin mühafizəsi üzrə bilik və peşəkarlığın artırılması məqsədilə maarifləndirici seminarlar təşkil edilib, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına dair maarifləndirici slaydlar hazırlanıb, seminar iştirakçılarına əməyin mühafizəsinə dair yaddaş kitabçaları təqdim edilib.

**Xəbərlər şöbəsi**

*...Məktəb yaşına çatanda valideynləri onu Naxçıvandakı 1 nömrəli beynəlmiləl məktəbə qoyurlar. Həmin məktəb şəhərin mərkəzində, qədim birmərtəbəli, kürsülü binada yerləşirdi. Bu bina bolşeviklərin əlindən ölkəni tərk etmiş keçmiş xanların evi idi (bu bina indi mövcud deyil). Beynəlmiləl məktəbin üç bölməsi var idi. O, Azərbaycan bölməsində oxuyurdu. Lakin rusdilli yaşıdları ilə daimi ünsiyyət və rus dilində çoxlu mütaliə nəticəsində artıq bir neçə ildən sonra fikrini rus dilində sərbəst izah edə bilirdi. Artıq pedaqoji texnikuma gələndə rus dilində səlist danışırdı... Kiçik yaşlarından istedad və qabiliyyəti, mütaliəli və hazırlıqlı olması, ən əsası isə müəllimliyə olan böyük həvəsi təhsilini pedaqoji texnikumda davam etdirməsinə səbəb oldu.*



# Bu bina hamımız üçün əzizdir

Naxçıvan Pedaqoji Texnikumu onun ilk ixtisas təhsili aldığı doğma təhsil ocağı idi. Bu təhsil ocağı onun öz doğma dilinə, ədəbiyyatına böyük sevgi yaradacaq, gələcək həyatında daha yüksək pillələrlə irəliləməsində mühüm rol oynayacaqdı. O, Azərbaycanın, eləcə də bütün Türk dünyasının dahi şəxsiyyətinə çevriləcəkdi. Dünya Azərbaycanı Onunla tanıyacaqdı. İllər keçəcək... Ancaq O, heç zaman ona doğma olan bu təhsil ocağını, əziz müəllimlərini unutmayacaqdı və bunu elə oxuduğu həmin yerdə, hər kəsin qarşısında inamla bir daha dilə gətirəcəkdi: ***"...mən bu binada oxumuşam, təhsil almışam... Ona görə bu divarlar mənim üçün əzizdir. Bunun balkonu var idi, o tərəfdə də bir bina var idi. O da bu binaya bitişik idi... Bunun həyəti var idi... həyətdə idman etmək üçün bəzi imkanlar var idi. Burada gözəl müəllimlər var idi... "***

Naxçıvan şəhərinin Atatürk və "İstiqlal" küçələrinin kəsişdiyi yerdə ikimərtəbəli tarixi bir bina var. Naxçıvanda qızlar məktəbi üçün tikilmiş bu bina son 15 ilədək, əsasən, təhsil müəssisəsi kimi fəaliyyət göstərib. İkimərtəbəli bina Şərq və Qərb memarlıq elementlərinin sintezini özündə birləşdirir. 2008-ci ildə nəşr olunmuş "Naxçıvan Abidələri Ensiklopediyası"nda binanın 1897-ci ildə Naxçıvanda qızlar məktəbi üçün tikildiyi qeyd olunsa da, digər versiyaya görə, bina o zaman həmin ərazidə yaşamış Naxçıvanın zəngin nəslindən olan bir qadına (?!) məxsus olub. Ancaq hələlik bu fakt tam araşdırılmayıb.

Qeyd edək ki, Naxçıvanda müəllim kadrların hazırlığı ötən əsrin əvvəllərindən diqqət mərkəzində olub. 1922-ci il avqust ayının 28-də Naxçıvan şəhərindəki teatr binasında keçirilən Naxçıvan Müəllimlərinin I Qurultayında Naxçıvanda müəllim çatışmazlığı ciddi müzakirə edilərək 1 noyabr 1922-ci ildə Naxçıvan Müəllimlər Seminariyasını açmaq haqqında qərar qəbul olunur. Bir neçə aylıq müəyyən hazırlıq işlərindən sonra seminariyanın açılması üçün maddi-texniki baza yaradılır və seminariya fəaliyyətə başlayır. Naxçıvan Müəllimlər Seminariyası bir il fəaliyyət göstərəndən sonra pedaqoji texnikuma çevrilir və 1923-cü ilin dekabrından Ordubad şəhərində fəaliyyət göstərməyə başlayır. Texnikumda pedaqoji şura, metodik təşkilatlar, tələbə komitəsi, müxtəlif fənn dərnəkləri yaradılır. Bu pedaqoji texnikumda 1925-1926-cı tədris ilində 119 nəfər tələbə təhsil alır. Növbəti ildə texnikumun ilk buraxılışı olur ki, bu zaman 18 nəfər məzun müəllimlik diplomu alaraq muxtar respublika məktəblərində işləməyə başlayır. 1938-1939-cu tədris ilində isə Naxçıvan Pedaqoji Texnikumunu 92 nəfər gənc bitirir. Bu gənclər sonralar Azərbaycanın ictimai-siyasi fikrin və xalq maarifinin inkişafında mühüm rol oynayırlar. Həmin məzunlar arasında dünya şöhrətli siyasi xadim, ümummilli liderimiz Heydər Əliyev də var idi. Ulu öndər 25 iyun 1939-cu il tarixdə həmin texnikumu əla qiymətlərlə bitirir və ona 2027 №-li diplom verilir.

1945-1946-cı tədris ilinin sonundan 2001-ci ilə qədər isə bəhs etdiyimiz binada Naxçıvan Tibb Məktəbi fəaliyyət göstərir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 13 iyul tarixli qərarı ilə Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin xatirəsini əbədiləşdirmək məqsədilə burada muzey yaradılır.

Mərhum pedaqoq-alim, zəmanəmizin ən müdrik insanlarından birinin müəllimi olmuş Lətif Hüseynzadə "Naxçıvan teatrı tarixindən" kitabında yazır: "Bu bina 1930-cu illərdə Naxçıvan Pedaqoji Texnikumu olmuşdur. 1938-1939-cu illərdə mən – Lətif Hüseynzadə bu texnikumda türk dili, ədəbiyyat müəllimi və dərs hissə müdiri vəzifəsində çalışmışam. Bu illərdə çox dəyərli, bilikli, mahir müəllim və pedaqoqlar dərs deyirdilər".

Yazıçı-publisist Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və zaman" kitabında oxuyuruq: "...Lətif Hüseynzadə Heydər Əliyevin texnikuma qəbul olunmasını belə xatırlayır: Onun atası Naxçıvanda nüfuzlu şəxs idi. O, mənim atamla da tanış idi. Atam Hacı Talıb başmaqçı idi, öz emalatxanası vardı. Əlirza kişi tez-tez emalatxanaya, atamın yanına gəlir və onunla uzun-uzadı söhbət edirdilər. 1936-cı ilin tədris ili ərəfəsində o, oğlu ilə birlikdə bizə gəldi. Əlirza kişi dedi: "Heydər müəllim olmaq istəyir, bu elə mənim də arzumdur". Sentyabrın birindən artıq on gün keçirdi, dərslər başlamışdı. Biz o vaxt tələbələri müsabiqə yolu ilə qəbul edirdik, onları sorğu-sual edir, bilik səviyyələrini yoxlayırdıq. Mən ona baxdım: gözəl, görkəmli, xoşrəftar, müəllim üçün zəruri görünüşə malik bir oğlan idi. Onu yoxlamaq qərarına gəldim. Dildən, ədəbiyyatdan suallar verməyə başladım. O, gözəl Azərbaycan dilində, bir dəfə də rus sözü işlətmədən əla cavab verdi. Bəziləri kimi rus kəlimələrini Azərbaycan sözlərinə qatıb danışmadı... Mən dedim: "Ondan yaxşı müəllim olar". Biz onunla birlikdə direktor Kazım Talıblının yanına getdik. O da Əlirza kişini tanıyırdı, ancaq tərəddüd edirdi: onun oğlunu qəbul edə bilərikmi, axı artıq dərslər başlayıb. Direktor təklif etdi ki, onu riyaziyyatdan yoxlayaq. Yeznəm Tofiq Bektaşi pedaqoji texnikumda dərs deyirdi, çox tələbkar olduğundan ondan yaxşı qiymət almaq o qədər də asan məsələ deyildi. Ancaq Tofiq də onun bilik səviyyəsindən razı qaldı. Heydər Əliyevin qəbul məsələsi həll olunandan sonra mən onu sinfə aparıb tələbələrə və müəllimə təqdim etdim".



Ümummilli lider Heydər Əliyev gənc yaşlarından müəllimlərinin sevimlisi olduğu kimi, o da öz müəllimlərini və oxuduğu təhsil ocağını böyük məhəbbətlə xatırlayırdı. 2002-ci il iyunun 18-də Bəhruz Kəngərli Muzeyinin açılış mərasimində böyük öndər çıxış edərək demişdir: ***"Mən bu binada oxumuşam, təhsil almışam. Mən burada orta təhsil aldıqdan sonra Bakıya gedib Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsinə daxil olmuşam. Mən həmişə Naxçıvanda oxuduğum dövrü xatırlayıram, bu dövr mənim yadımdan heç vaxt çıxmayacaqdır. Birinci sinifdən sona qədər heç vaxt yadımdan çıxmayacaqdır. Ona görə də müəllimlərin hamısı yadımdadır. Hansı binada, hansı sinifdə oxumuşam, o da yadımdadır. Hansı partanın arxasında oturmuşam, o da yadımdadır. İndi içəri keçsək, sizə göstərərəm, biz hansı sinifdə dərs keçirdik – hamısı yadımdadır. Nə üçün? Çünki həyatımızın ağır dövründə – təkcə mənim həyatımda yox, bütün xalqımız ağır dövr yaşayırdı, – çətin problemlər içərisində burada o qədər məhəbbətlə, o qədər sevgi ilə nə qədər köklü təhsil aldım ki, sonra bütün başqa yüksək təhsil ocaqlarında oxumaq mənim üçün çətin olmadı. Əksinə, buradakı kimi, mən sonra da həmişə tələbələrin içərisində seçilən olmuşam".***

*Bəli, bir zamanlar Naxçıvan Pedaqoji Texnikumunun yerləşdiyi binada indi Bəhruz Kəngərli Muzeyi fəaliyyət göstərir. Binanın ikinci mərtəbəsində digər eksponatlarla yanaşı, ulu öndər Heydər Əliyevə aid xatirə otağı da var. Otaqda ulu öndərin burada oxuduğu illəri əks etdirən qiymət cədvəlləri, öz xətti ilə yazılmış tərcümeyi-halın surəti, tələbəlik illərinə aid qeyd dəftərinin fotoşəkli, 1939-cu ildə pedaqoji texnikumu əla qiymətlərlə bitirən tələbələrin "Şərq qapısı" qəzetində çap edilmiş fotoşəkilləri və sair nümayiş etdirilir. İndi bura yolu düşən hər kəs muzeydəki eksponatlarla bərabər, dahi şəxsiyyətin bu bina ilə bağlı xatirələri ilə də tanış olur...*

**Səbuhi HƏSƏNOV**

# Ulu öndərin Azərbaycan dilinin inkişafında xidmətləri əvəzsizdir

***Ulu öndərimiz Heydər Əliyev milli dəyərlərimizə daim qayğı göstərmişdir. Bu dəyərlər içərisində ən böyüyü, ən ülvisi Ana dilimiz – Azərbaycan dilidir. Ana dili milli varlığımızı şərtləndirən ən mühüm və başlıca amildir; dil varsa, millət də mövcuddur, dil yoxsa, millətin varlığından söhbət gedə bilməz.***

50 milyonluq insanın doğma dili olan Azərbaycan dili hazırda dünyanın ən inkişaf etmiş dillərindən biridir. Çünki bu dilin dövlət dili statusu, mükəmməl yazılı və şifahi ədəbi nitq formaları vardır. Məlumat üçün deyək ki, dünyada mövcud olan altı min dildən yalnız 225 dilin yazılı forması mövcuddur və həmin dillərdən ancaq 109 dilin dövlət dili statusu vardır. Bu, bir daha onu göstərir ki, Azərbaycan dili, belə demək mümkünsə, dünyanın ən xoşbəxt dillərindən biridir. Əlbəttə, Azərbaycan dili indiki səviyyəyə çatmaq üçün çox çətinliklərlə qarşılaşmışdır. Xüsusilə onun dövlət dili statusu məsələsi uzun mübarizələrin nəticəsində, yalnız xalqımızın tarixə bəxş etdiyi dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində mümkün olmuşdur. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası qəbul edilərkən dahi rəhbər Heydər Əliyevin ciddi səyləri və qətiyyəti sayəsində həmin Konstitusiyanın 73-cü maddəsində ilk dəfə Azərbaycan dilinin statusu müəyyən edilmişdir. Bu, dövlətçilik tariximizdə dilimizin dövlət dili statusu sahəsində aparılan mübarizələrdə ulu öndər Heydər Əliyevin adı ilə bağlı ən möhtəşəm, ən nadir qələbələrin birincisi və ən vacibi idi. Çünki bu tarixə qədər dilimizin statusunun müəyyənləşməsinə bir neçə dəfə təşəbbüs göstərilsə də, onların hamısı uğursuzluqla nəticələnmişdi.

Müstəqillik əldə etdikdən sonra ulu öndərimiz ölkəmizdə mükəmməl dil siyasəti həyata keçirərək bunu dövlət siyasətinin üzvi tərkib hissəsinə çevirmişdir. Dilimizin böyük təəssübkeşi müdrik şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının 21-ci – "Dövlət dili" maddəsində qeyd olunmuşdur ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Yeri gəlmişkən qeyd edək ki, hazırda dünya dillərinin bir-birini sıxışdırıb aradan çıxarması, dillərin məhv olması prosesi gedir. Təhlükəyə Məruz Qalmış Dillər üzrə Tədqiqat Mərkəzinin məlumatına görə, hər il 10 dil ünsiyyət vasitəsi olmaq funksiyasını itirir.

Dahi rəhbər Heydər Əliyev ölkəmizdə dilimizin qorunması, təbliqi, tədqiqi sahəsində möhtəşəm tədbirlər həyata keçirmişdir.

18 iyun 2001-ci ildə ulu öndər "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" tarixi Fərman imzalamışdır. Fərmanda görüləcək işlər konkret olaraq diqqət mərkəzinə çəkimiş və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Doqquz maddəni özündə əks etdirən fərmanda dil sahəsində yerinə yetirilməsi vacib olan bir sıra məsələlər: Dövlət Dil Komissiyasının yaradılması, dil qanunu layihəsinin hazırlanması, latın qrafikalı yeni əlifbaya keçidlə bağlı işlərin 1 avqust 2001-ci ilədək yekunlaşdırılması, orta və ali məktəblərdə Azərbaycan dilinin tədrisi keyfiyyətinin yaxşılaşdırılması, kitabların latın qrafikalı əlifba ilə yenidən çap olunması, Azərbaycan dilçiliyi üzrə elmi araşdırmaların yenidən planlaşdırılması, reklam, plakat, lövhə, şüarlar və digər əyani vasitələrin Azərbaycan ədəbi dilinə uyğunlaşdırılması, xarici kino və televiziya materiallarının Azərbaycan dilinə çevrilib dövlət dilində nümayiş etdirilməsi, çap məhsullarının və kargüzarlıq işlərinin 2001-ci il avqustun 1-nə qədər latın qrafikasına keçirilməsinin təmin olunması və nəhayət, dövlət dilinə qarşı təbliğat aparılmasının və bu kimi halların qarşısının alınması üçün məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsinin hazırlanması kimi çox mühüm məsələlər öz əksini tapmışdır.

9 avqust 2001-ci il tarixdə müdrik rəhbər Heydər Əliyev "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" Fərman imzalamışdır. Həmin fərmanla latın qrafikalı yeni Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci il avqust ayında təmin edildiyi və yeni əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, yazı mədəniyyətinin tarixində mühüm hadisə olduğu nəzərə alınaraq hər il avqust ayının 1-nin Azərbaycan Respublikasında "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd olunması rəsmiləşdirilmişdir.

Xalqımızın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə Dövlət Dil Komissiyası tərəfindən hazırlanan "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu ulu öndər tərəfindən 30 sentyabr 2002-ci ildə təsdiq olunmuş, 2 yanvar 2003-cü il tarixdə isə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərman verilmişdir.

3 fəsil, 20 maddədən ibarət olan bu qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, ölkəmizdə Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayan tarixi sənəddir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin dil siyasəti onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli, "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 13 yanvar 2004-cü il tarixli, "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" 30 dekabr 2007-ci il tarixli, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 23 may 2012-ci il tarixli və "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 9 aprel 2013-cü il tarixli sərəncamları ölkəmizdə dil siyasətinin uğurla davam etdirildiyini göstərən dövlət sənədləridir.

Dilimizə hörmət və ehtiram Naxçıvan Muxtar Respublikasında da yüksək səviyyədə özünü göstərir. Dilimizin şərəfinə Naxçıvan şəhərində "Ana dili" abidəsi ucaldılmış, reklam və lövhələr dil qanununun tələbləri səviyyəsində tərtib edilmiş, vaxtilə ayrı-ayrı şəxslər tərəfindən yol verilən yanlışlıqlar aradan qaldırılmışdır. Bir sözlə, Naxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyevin dil siyasəti layiqincə və uğurla həyata keçirilməkdədir.

*Sonda onu qeyd etmək istəyirik ki, dilimiz yaşadıqca millətimiz var olacaq, millətimiz var olduqca ümummilli liderimiz, dahi siyasi xadim, qüdrətli və nadir şəxsiyyət Heydər Əliyevin ideyaları da yaşayacaqdır.*

**Akif İMANLI**
***professor***



***Hər bir xalqın qədimliyini sübut edən onun mədəniyyətidir, tarixi abidələridir. Bu cəhətdən Naxçıvan ərazisi xüsusilə diqqəti cəlb edir. Naxçıvan diyarı antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamından sonra muxtar respublikada 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılmışdır. Bu abidələrin içərisində qalaların özünəməxsus yeri vardır. Tədqiqatlar göstərir ki, Naxçıvan qalatipli yaşayış yerləri ilə zəngin bir diyardır.***

# Naxçıvan qalaları

## *tariximizin öyrənilməsində mühüm mənbədir*

Naxçıvanda qalatipli yaşayış yerləri eramızdan əvvəl III minillikdə yaranmış, sonrakı dövrlərdə bu tip yaşayış yerlərindən geniş istifadə edilmişdir. Orta əsrlərdə qalatipli yaşayış yerləri Azərbaycan xalqının işğalçılara qarşı mübarizəsində mühüm istinad nöqtələrindən biri olmuşdur. Yerli əhali özünü qorumaq üçün müdafiə qalaları yaratmışdır. Belə qalalar, adətən, təbii qayalar üzərində qurulmuşdur. Bunlara misal olaraq Əlincəqala, Oğlanqala, Çalxanqala, Berdiqala, Qalacıq, Qazançıqala, Vayxırqala, Nəhəcir qalası, Ordubad qalası və başqalarını göstərmək olar.

Naxçıvan qalaları daha çox müdafiə xarakterli tikintilərdir. Naxçıvanın qalaları üçün aşağıdakı cəhətlər səciyyəvidir:

– Azərbaycanın digər rayonlarına nisbətən Naxçıvan qalalarının daha güclü bürclərə malik olması;

– Naxçıvanın müdafiə tikililəri üçün vahid səciyyəvi sistem giriş darvazasının paralel divarları arasında dəhliz – "tələ" yaradılması.

Naxçıvanın müdafiə tikililərini qədim dövrə aid siklop qalalar, antik dövr müdafiə sistemi və orta əsr müdafiə qalaları kimi bir neçə yerə ayırmaq olar.

Naxçıvanda ən böyük siklop qalalar dağlıq zonasını düzən və aran zonasından ayıran dar keçidlərdə tikilməklə əsas giriş və çıxışı nəzarətdə saxlamaq məqsədi daşımışdır. Siklopik tikililər qədim tayfaların həyatında baş verən iqtisadi, ictimai-siyasi dəyişikliklərin öyrənilməsinə imkan verir. Naxçıvanın siklopik qalaları Tunc və İlk Dəmir dövrlərinə aid olub, əsasən, düşmən hücumundan müdafiə xarakterli tikililərdən ibarətdir.

Naxçıvan ərazisindəki Oğlanqala, Govurqala, Çalxanqala və Qazançı qalası adı ilə tanınan bir sıra möhtəşəm qədim istehkam tikintiləri və qalalar Azərbaycan tarixinin qədim dövrünü öyrənmək üçün çox əhəmiyyətlidir.

Çalxanqala öz möhtəşəmliyi və memarlıq xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu qala öz tikinti texnikasına görə Azərbaycanın, eləcə də Cənubi Qafqazın Tunc və İlk Dəmir dövrləri üçün səciyyəvi olan qədim siklop qalalarına aiddir.

Qədim Naxçıvan tayfalarının yadellilərin işğallarına qarşı tikdikləri möhtəşəm qalalardan biri də Govurqaladır. Naxçıvanda Tunc dövrünə aid bir sıra qalalar – Şahtaxtıda, Vayxırda və Qarabağlardakı Govurqalalar bu qəbildəndir.

Naxçıvanın ən zəngin qədim şəhər mədəniyyəti abidələrindən biri Arpaçay ərazisindəki Oğlanqaladır. Bu qədim şəhər mərkəzi Qaratəpə dağı üzərində salınmışdır. Dağ çoxterraslı olub, ən hündürdə yerləşən Narınqala hissəsi Oğlanqala adlandırılır. Qala öz tikinti texnikasına görə Qafqazın siklop tikililəri ilə tanınan ən qədim müdafiə qalaları silsiləsinə daxil edilmişdir. Oğlanqala burada formalaşan dövlətin mərkəzi kimi fəaliyyət göstərmiş, Dəmir dövründə dünyanın böyük imperiyaları ilə mübarizədə öz daxili müstəqilliyini qoruyub saxlamışdır.

Qazançı qalası öz möhtəşəmliyinə görə



indiyədək Naxçıvan ərazisində məlum qədim qala-şəhərtipli abidələrdən Oğlanqala ilə müqayisə oluna bilər. Qazançı abidələri kompleksi geniş bir sahəni əhatə edir. Abidə, əsasən, iki hissədən – dağın zirvəsində yerləşən Narınqaladan və terraslardakı müdafiə sədlərindən ibarətdir. Qala bu ərazidə yaşayan tayfaları qonşu tayfaların və yadellilərin hücumlarından qorumaq üçün tikilmişdir.

Qalatipli yaşayış yerləri tipoloji və funksional xüsusiyyətlərinə görə üç qrupa ayrılır: qala-şəhərlər, müdafiə xarakterli tikintilər, gözətçi məntəqələri. Sonuncu tip müdafiə tikililəri Naxçıvanın müxtəlif yerlərində yayılmış və ərazinin nəzarətdə saxlanılmasına xidmət etmişdir.

Arxeoloji tədqiqatlar Naxçıvanda qala-şəhərlərin beş min il bundan əvvəl formalaşdığını təsdiqləyir. Qala-şəhərlər başlıca olaraq çay vadilərində, ticarət və sənətkarlıq üçün əlverişli mövqelərdə salınmışdır. Naxçıvanda II Kültəpə, Naxçıvan, Şahtaxtı, Qızqala, Qızılburun, Qazançıqala kimi qədim qala-şəhərlərin mövcud olduğu təsdiq olunmuşdur. Qala-şəhərlərin mərkəzi hissəsində yerləşən Narınqala bürclərlə möhkəmləndirilən qalın divarla əhatə edilirdi.

Naxçıvan qalaları arasında Qız qalası adlandırılan qalaların da özünəməxsus yeri vardır. Dünyada 39 Qız qalası qeydə alınmışdır. Bunun da 15-ə qədəri Azərbaycandadır. Naxçıvan ərazisində də bir neçə tarixi abidə var ki, adına Qız qalası deyirlər. Qalalardan üçü Şərur rayonu, biri isə Babək rayonu ərazisindədir. Qız qalalarının hamısı müdafiə qalalarıdır.

Antik və erkən orta əsrlərdə də qalatipli yaşayış yerləri xalqımızın xarici işğalçılara qarşı mübarizəsində əsas rol oynamışdır. Qala-şəhərlərdən Naxçıvanqala, Qalacıq, Azad-Kiran həmin dövrdə Azərbaycanın əsas siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında" 2011-ci il 7 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, mühüm tarixi abidələrdən olan Naxçıvanqalada əsaslı bərpa işləri həyata keçirilmiş, muzey yaradılmışdır.

Naxçıvan qalaları Azərbaycanın və Yaxın Şərqin tarixində mühüm əhəmiyyətə malik olmuşdur. Qalalar müxtəlif dövrlərdə xalqımızın düşmənə qarşı əzmlə mübarizə apardığını təsdiq edir. Orta əsrlərdə Şahbuzqala, Piləpanqala, Naxçıvanqala, Əfqan qalası, Kiran qalası xalqımızın siyasi və mədəni mərkəzləri kimi tariximizdə mühüm rol oynamışdır. Kiran qalasının oynadığı rol daha əhəmiyyətli olmuşdur.

Mənbələrin verdiyi məlumata görə, Kiran şəhəri eramızdan əvvəl V əsrdə antik şəhər kimi mövcud olmuşdur. XIV əsrdə yaşamış məşhur tarixçi Məhəmməd Hinduşah Naxçıvani "Dəstür əl-katib fi-Təyin-əl-Məratib" ("Vəzifələrə müvafiq məktubların yazılma qaydası") əsərində göstərir ki, Naxçıvan canişini Kiran (Gilan) canişinindən 20 min atlı istəmişdir. Təbii ki, belə məlumat o zaman Kiranın böyük bir şəhər olmasını göstərir. Şəhər XV əsrdə Əmir Teymurun oğlu Miranşah tərəfindən dağıdılmışdır. Bundan sonra Kiran şəhəri xalq arasında Xaraba Gilan adı ilə tanınmışdır. Xaraba Gilan şəhərinin qalası orta əsrlərdə Azərbaycanın ən möhkəm müdafiə qurğularından idi. Bu qalanın müdafiəsində bürclər çox böyük rol oynamışdır. Qalanın hərbi yolu 6 bürclə qorunurdu.

Yazılı mənbələrdə ilk dəfə "Kitabi-Dədə Qorqud" dastanında xatırlanan Əlincəqala xarici işğalçılara qarşı mübarizədə xüsusilə fərqlənmiş, Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmışdır. Əlincəqalanın iki min ildən artıq tarixi vardır. Qala I-VI əsrlərdə yerli hökmdarların əsas iqamətgahlarından biri olmuş, qala-şəhər kimi formalaşmışdır.

Əlincəqalanın orta əsrlərin siyasi hadisələrində çox böyük rolu olmuşdur. Azərbaycan Atabəyləri – Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın istər hərbi-strateji, istərsə də iqtisadi və siyasi mövqeyi xeyli artmışdı. Bu qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün bir sığınacaq yeri kimi istifadə olunmuşdur. Məhəmməd Cahan Pəhləvanın arvadı, Naxçıvanın hakimi Zahidə xatının əsas iqamətgahı həmin dövrdə Əlincəqalada yerləşirdi.

Azərbaycanın dövlətçilik tarixində qalaların mühüm əhəmiyyəti olmuşdur. Azərbaycanda ən qədim dövlətlər qala-şəhərlər şəklində formalaşmışdır. Qalalar başlıca olaraq müdafiə, sonralar dini, ticarət, sənətkarlıq məqsədilə istifadə edilmişdir. Tarixin sonrakı dövrlərində də Naxçıvan qalaları öz funksiyalarını bu və ya başqa formada davam etdirmiş, ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal rol oynamışdır. Tarix və mədəniyyət abidələrinin, qalatipli yaşayış yerlərinin tariximiz üçün əhəmiyyətini qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qalaların bərpası və arxeoloji qazıntı işləri ilə tanış olmaq üçün dəfələrlə Naxçıvanqala, Əlincəqala, Oğlanqala, Ovçular təpəsi, Qızqala və başqa abidələrdə olmuş, tapşırıq və tövsiyələrini vermiş, qalaların, tarix və mədəniyyət abidələrinin bərpası ilə əlaqədar çoxsaylı sərəncamlar imzalamışdır. Nəticədə, onlarla tarixi və mədəniyyət abidələrimiz əsaslı şəkildə bərpa olunmuşdur. Bu abidələr arasında Əlincəqalanın bərpasının xüsusi yeri vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 11 fevral 2014-cü il tarixdə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin sərəncama əsasən "Əlincəqala" tarixi abidəsi bərpa olunmuş və muzey yaradılmışdır.

*Naxçıvan Muxtar Respublikasının tarixi və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Bu abidələr heç vaxt indiki qədər diqqət və qayğı ilə əhatə edilməmiş, xalqımıza tanıdılmamış, təbliğ olunmamışdır.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# AMEA Naxçıvan Bölməsində birinci yarımilə həsr olunmuş hesabat yığıncağı keçirilib



***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin 2016-cı ilin birinci yarısına həsr olunmuş elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı hesabat yığıncağında çıxış edən bölmənin sədri, akademik İsmayıl Hacıyev qeyd olunan dövrdə görülən işlər barədə danışıb.***

Bildirilib ki, AMEA Naxçıvan Bölməsində görkəmli bəstəkar Qəmbər Hüseynlinin 100, Birinci Türkoloji Qurultayın 90, Eynəli bəy Sultanovun 150 illik yubileyləri ilə yanaşı, mühüm tarixi günlər də qeyd olunub. "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-etnoqrafik atlasının, "Naxçıvan coğrafiyası"nın I cildinin, "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın hazırlanması və nəşri həyata keçirilib. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası, "Əlincəqala" tarixi abidəsinin və "Gülüstan" türbəsinin bərpası və tədqiq edilməsinin elmi əsaslarla aparılması yönündə elmi və elmi-təşkilati işlərin uğurlu həllinə çalışılıb. Bu dövrdə bölmədə humanitar və ictimai, təbii və texniki elmlər seriyalarından ibarət olan "Xəbərlər" jurnalının 2 nömrəsi çapdan çıxıb.

Hesabat dövründə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarının 1-i xaricdə olmaqla, 3 monoqrafiyası, 70 məqaləsi və konfrans materialı olmaqla (15-i xaricdə), 74 elmi əsəri nəşr edilib.

Qeyd olunub ki, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu əməkdaşlarının 61 elmi əsəri, o cümlədən 1-i xaricdə olmaqla, 2 kitabı, 16-sı xaricdə olmaqla, 59 elmi məqaləsi və konfrans materialı çap edilib. Hesabat dövründə 2 tatar şairinin şeirləri Azərbaycan dilinə tərcümə edilib və "Yeni tatar şeiri antologiyası" dərc olunub, Hayreddin Evginin "Manas" romanı tərcümə olunaraq çapa təqdim edilib.

Birinci yarımildə bölmənin Təbii Ehtiyatlar İnstitutunun əməkdaşlarının 47 elmi əsəri, o cümlədən 3 monoqrafiyası, 26 elmi məqaləsi, 16 konfrans materialı və 2 tezisi dərc olunub. Əsərlərdən 14 məqalə, 7 konfrans materialı və 2 tezis xaricdə nəşr edilib.

Bioresurslar İnstitutunun əməkdaşlarının isə 1 monoqrafiyası, 1 metodik vəsaiti, 61 elmi məqaləsi və konfrans materialı olmaqla, 63 elmi əsəri çap olunub. Əsərlərdən 8 elmi məqalə, 11 konfrans materialı xaricdə çapdan çıxıb ki, bunlardan 5-i impakt faktorlu jurnallarda nəşr olunub. İnstitut əməkdaşları akademik Tariyel Talıbovun rəhbərliyi ilə Ümumdünya Təbiəti Mühafizə Təşkilatının "Naxçıvan Muxtar Respublikası ərazisində bəbir və onun qida obyektlərinin monitorinqinin aparılması" mövzusunda beynəlxalq qrant layihəsi istiqamətində elmi-tədqiqat işlərini başa çatdıraraq hesabatı müvafiq quruma təqdim ediblər.

Diqqətə çatdırılıb ki, bölmənin Əlyazmalar Fondu əməkdaşlarının 3 elmi məqaləsi, 2 konfrans materialı çapdan çıxıb. Elmi-tədqiqat işlərinə dair fondda 1 elmi seminar keçirilib. Tədqiqat dövründə Məhəmməd Naxçıvaninin Təbriz Milli Kitabxanasında saxlanılan qədim kitab və əlyazma nüsxələrinin kataloqunun II cildi üzərində tərcümə və şərh işləri davam etdirilib. Hesabat dövrü ərzində fondun zənginləşdirilməsi məqsədilə aparılan bir sıra səmərəli iş fəaliyyəti və ekspedisiyaların nəticəsi olaraq 2 adda əlyazma və qədim kitablar toplanılıb, ilkin tədqiqat mərhələsi başa çatdırılıb. Fondda olan 34 adda əlyazma tam şəkildə kataloqlaşdırılıb. Birinci yarımildə fonda hədiyyə olaraq verilmiş 21 adda qədim kitab və əlyazma nümunələri aktlaşdırılaraq fondun balansına daxil edilib. Bununla da, fondda toplanılan əlyazmaların və qədim kitabların ümumi sayı 479-a çatdırılıb.

İlin birinci yarısında AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasına daxil olan çap məhsullarının həcmi 714 ədəd olub. Kitab fonduna 205 ədəd kitab daxil edilib ki, onlardan 170-i Azərbaycan və rus, 12-si Qərbi Avropa, 23-ü isə Şərq və müxtəlif etnik qrupların dillərindədir. Hesabat dövründə 1904 ədəd kitab elektron kataloqlaşdırılıb. İlin birinci yarısında Geologiya, Hidrogeologiya və Geofizika şöbələrinin kitablarının elektron kataloqlaşdırılması başa çatıb, Kənd təsərrüfatı şöbəsinin elektron kataloqlaşdırılması işinə başlanılıb.

Sonda bölmə sədri, akademik İsmayıl Hacıyev yarım il ərzində qazanılan uğurlarla yanaşı, mövcud nöqsanlara da toxunub, yaranan problemlərin həllinin aradan qaldırılması yollarından bəhs edib.

Tədbirdə 2016-cı ilin birinci yarısında bölmə əməkdaşlarının elmi fəaliyyətlərini əks etdirən videogörüntü və elmi nəşrlərdən ibarət sərgi nümayiş olunub.

**Nərgiz İSMAYILOVA**

## Şərq Döyüşü Sənəti Federasiyasının idmançıları Ağbulaq İstirahət Mərkəzində istirahət ediblər

*Cari ilin mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur. İyulun 11-12-də mərkəz növbəti qonaqlarını – Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələrini qəbul edib.*





45 nəfər yeniyetmə idmançını Ağbulaq İstirahət Mərkəzində mərkəzin və təşkilatçı qurumların əməkdaşları qarşılayıblar və onlara mərkəz haqqında geniş məlumat verilib. Tanışlıqdan sonra idmançılar nahar yeməyinə yollanıblar. Proqrama uyğun olaraq idmançılar əvvəlcə stolüstü oyunlarda qüvvələrini sınayıblar. Daha sonra onlar arasında voleybol və badminton oyunları təşkil edilib. Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olan və “Ağbulaq” bulağına yürüş edən yeniyetmə idmançılar sonra şam yeməyinə yollanıblar. Ardınca isə vətənpərvərlik mövzusunda “Nuh yurdu – Naxçıvan” sənədli filmi nümayiş etdirilib.

Növbəti günə səhər gimnastikası ilə başlayan federasiyanın yetirmələri proqrama uyğun olaraq mərkəzin stadionunda keçirilən mini-futbol yarışında iştirak ediblər. Nahar yeməyindən sonra isə əyləncəli oyunlar keçirilib. Bu oyunlarda idmançılar fəallıq nümayiş etdiriblər. Beləliklə, idmançıların mərkəzdə ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

İkigünlük istirahət məşqçilərdə və idmançılarda xoş təəssürat yaradıb. Federasiyanın sədr müavini Cavanşir Salayev idmançıların asudə vaxtlarının təşkili istiqamətində görülən işlərə görə təşkilatçılara minnətdarlığını bildirdi. Qeyd etdi ki, idmançıların iki gün ərzində proqram çərçivəsində müxtəlif tədbirlərə qatılması səmərəli olub. Bu tədbir idmançılar arasında eyni zamanda dostluq və yoldaşlıq münasibətlərinin qurulmasına müsbət təsir göstərib.

Məlumat üçün bildirək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının təşkilatçılığı ilə reallaşdırılıb.



## *Boccia* idman növü üzrə yarış

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilən “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”na uyğun olaraq tətil günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqət yetirilir.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə Naxçıvan Uşaq Bərpa Mərkəzinin idman zalında sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə boccia idman növü üzrə yarış keçirilib.

Sonda hakimlər heyəti yarışın qaliblərini müəyyən edib. Qaliblər mükafatlandırılıb, digər yarış iştirakçılarına isə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, Paralimpiya Federasiyasının nəzdində Uşaq Paralimpiya Klubunun yaradılması məqsədilə cari ilin may ayında boccia idman növü üzrə bölmə fəaliyyətə başlayıb. Bölməyə cəlb olunan uşaqlarla ilk məşqləri federasiya tərəfindən dəvət olunan Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsinin boccia idman növü üzrə baş məşqçisi aparıb.

**Xəbərlər şöbəsi**

*İdman*

## Naxçıvandakı üzgüçülük mərkəzlərindən istifadə edənlərin sayı artır

***İdmanla məşğul olmaq bədənimizi və ruhumuzu sağlam saxlayır. Müxtəlif idman növləri orqanizmimizə fərqli təsir göstərir. Çünki hər idman növü fərqli əzələlərə istiqamətlənir. Bu idman növləri içərisində üzgüçülük xüsusi əhəmiyyət kəsb edir: ideal bədən və əzələ quruluşuna sahib olmağımıza köməklik edir, beyin üçün faydalıdır. Son illər avstraliyalı mütəxəssislər uzunmüddətli təcrübə aparıblar. Onlar belə qənaətə gəliblər ki, üzgüçülük beyində qanın yaxşı işləməsinə səbəb olur, bədəndəki adrenalinin miqdarını yüksəldir ki, bu da damarları rahatlaşdırır. Mütəxəssislərin sözlərinə görə, üzgüçülüyün insan orqanizminə təsir göstərməsi üçün gündə ən azı 10 dəqiqə müddətində bu idmanla məşğul olmaq lazımdır. Üzgüçülüklə məşğul olarkən əməl edilməli olan əsas qaydalardan biri kifayət qədər maye qəbul etməkdir. Bu yolla itirilən enerjini tez zamanda bərpa etmək mümkündür.***



Üzmək eyni zamanda təzyiq və ürək problemi olan xəstələrə müsbət təsir edir. Üzməkdən əvvəl və sonra edilən hərəkətlər isə əzələləri gücləndirir. Lakin üzgüçülüyün faydaları ilə yanaşı, bəzi mənfi tərəfləri də var. Belə ki, bu idman növü xüsusi diqqət tələb edir. Bəzi hallarda insanların diqqətsizliyi nəticəsində üzməkdən sonra onlarda spazma yarana bilir. Bu kimi təhlükələrdən uzaq olmaq üçün üzdükdən sonra saçları yaxşı qurulamaq, bədəni soyuqdan qorumaq lazımdır.



Ümumiyyətlə, məsələyə dərindən yanaşsaq, su maddə olaraq insanı rahatladan, neqativ enerjini bizdən alan ən mükəmməl vasitədir. İnsanın ruhi və fiziki rahatlığını ifadə edən bir deyim də var: “Özümü sudakı balıq kimi hiss edirəm”. Üzgüçülüyün faydalı tərəflərini araşdırsaq, görərik ki, bu növlə məşğul olmaq insanı nə qədər gümrah saxlayır. Müasir həyat standartları daha çox oturaq iş həyatı ilə xarakterizə olunur. Bu baxımdan peşəkar səviyyədə olmasa da, üzgüçülüklə məşğul olmaq insanların ümumi həyat reflekslərini stabil vəziyyətdə saxlayır.

Muxtar respublikada bu idman növü də diqqət mərkəzindədir. Məhz bunun nəticəsidir ki, İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin və Şərur Olimpiya-İdman Kompleksinin nəzdində üzgüçülük mərkəzləri fəaliyyət göstərir. Naxçıvan şəhərindəki üzgüçülük mərkəzində fərdi qulluqla yanaşı, vətəndaşlar üçün üzgüçülük dərsləri də keçilir. İlham Əliyev adına Olimpiya-İdman Kompleksinin direktoru Ramin Talıbov bizimlə söhbətində vurğuladı ki, artıq yay mövsümünün gəlişi bura müraciət edənlərin də sayına müsbət təsir göstərib: “Hazırda üzgüçülük mərkəzinə fərdi müraciətlər çoxalıb. Burada oğlanlar və qızlar üçün məşqlər keçirilir. Həftənin II, IV və VI günləri günün ilk yarısında qızlar üçün, həftənin digər günləri isə oğlanlar üçün məşqlər təşkil edilib. Müraciət edənlər daha çox yeniyetmələrdir. Bununla yanaşı, muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının idmançıları üçün də şərait yaradılıb və onlar mərkəzdən istifadə edirlər”.

Üzgüçülüyün faydalarından da danışan Ramin Talıbov bildirdi ki, müraciət edənlər bu barədə də məlumatlandırılırlar: “Üzgüçülük elə bir idman növüdür ki, bununla hobbi kimi məşğul olanlar belə, sağlamlıq baxımından heç vaxt əziyyət çəkmirlər. Üzgüçülük daha çox ağciyəri genişləndirir. Bu da astma xəstəliyinin yaxşılaşmasına səbəb olar. Bura gələnlərdən misal göstərə bilərəm ki, bir qrup uşaqlar 6 həftə davamlı olaraq üzgüçülüklə məşğul olmuş və astma, ağır nəfəsalma kimi xəstəliklərə görə xəstəxanaya müraciət etməmişlər. Üzgüçülüklə davamlı məşğul olunarsa, bir il sonra öz möhkəm təsirini göstərər. Üzgüçülük aerobik bir idman olduğu üçün diabet xəstəliyi riskini azaldır. Nəticədə, insan bədənində olan əlavə çəkilər atılır. Həmçinin sümük, oynaq və əzələ problemi olan şəxslər üzməklə fizioloji problemlərdən azad ola bilərlər. İndi mərkəzdə vətəndaşların rahatlığı üçün hər bir şərait yaradılıb”.

Şərur Olimpiya-İdman Kompleksinin nəzdində olan üzgüçülük mərkəzinə də müraciət edənlərin sayı artıb. Kompleksdə bu gün yaradılan şəraitdən vətəndaşlar maksimum istifadə edirlər. Burada suyun təmizliyinə diqqət yetirilir. Bu da üzgüçülərin sağlamlığı üçün başlıca şərtlərdən biridir.

Bu gün Naxçıvandakı digər bir üzgüçülük hovuzu “Duzdağ” otelində fəaliyyət göstərir. İsti yay aylarında komplekslərlə yanaşı, bura müraciət edənlərin də sayı az deyil.

Son olaraq deyək ki, həkimlər hər zaman üzgüçülüyün insan sağlamlığı üçün vacib bir amil olduğunu vurğulayırlar:

- üzərkən əzələ qrupları birlikdə fəaliyyət göstərir. Bədənə düşən yükü və enerji sərfini bərabər paylaşdıraraq əzələ və oynaqların yüklənməsinin qarşısını alır;
- suyun içində sümük və oynaqlar daha da rahatlaşır. Bu səbəbdən də üzərkən bədən sərbəstlik və elastiklik qazanır;
- bir çox hallarda ürək xəstələrinə qan təzyiqini artıracaq, ürəyi gərginləşdirəcək fiziki fəaliyyətdən uzaq durmaq tövsiyə olunur. Amma üzmək ürək çatışmazlığından əziyyət çəkən xəstələr üçün ideal idman növü hesab edilə bilər;
- üzmək nəfəs sürəti və dərinliyini inkişaf etdirərək astma xəstələrinin vəziyyətində irəliləyişə səbəb olur. Üzgüçülük astma xəstələri üçün ən uyğun idman növü olaraq məsləhət görülür;
- üzərkən bütün əzələ qrupları işləyir və bədənin zərərli əlavə yağ ehtiyatı, ümumən, yox olmuş olur. Bu zaman insulin hüceyrələrinin həssaslığı artır və diabet riski azalır;
- üzmək nəfəsi qüvvətləndirməklə qan və hüceyrələrdəki oksigenin miqdarını artırır;
- üzmək bütün əzələ və bədən üzvlərini hərəkətə keçirərək ürəyi təmiz qan axını ilə təmin edir.

*Gəlin üzgüçülüklə məşğul olaq.*

**Ceyhun MƏMMƏDOV**

## Uşaqların yay tətili günləri səmərəli keçirilir

*“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı daha bir tədbir Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilib.*

Yay tətili günlərində sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı və şəhid ailələrinin uşaqlarının asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlər planı tərtib edilib. Bu plana uyğun olaraq uşaqların milli və mədəni irsimizin qorunub saxlandığı, təbliğ olunduğu mədəniyyət ocaqlarına, tarixi-memarlıq abidələrinə ekskursiyalarının təşkili, Naxçıvan Dövlət Film Fondunda Azərbaycan filmlərinin nümayiş etdirilməsi nəzərdə tutulub. Bu qəbildən olan tədbirlər uşaqların milli-mənəvi dəyərləri mənimsəmələri, onların tarixi-memarlıq abidələrini öyrənmələri baxımından mühüm əhəmiyyət kəsb edir.

İlk tədbir iyulun 8-də keçirilib. Uşaqlar Heydər Əliyev Muzeyini və Naxçıvan Dövlət Xalça Muzeyini ziyarət edib və Dövlət Film Fondunda “Qaraca qız” filminə baxıblar.

İyulun 12-də isə balacalar əvvəlcə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Xatirə Muzeyində olublar. Muzeylərdə uşaqlara milli dövlətçiliyimiz, tarixi-memarlıq abidələrimiz və tarixi şəxsiyyətlərimiz, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olan həmyerlilərimiz haqqında ətraflı məlumat verilib.

Sonra ekskursiyada iştirak edən uşaqlar Naxçıvan Dövlət Film Fondunda “Bir qalanın sirri” filminə baxıblar.

Tədbir uşaqlarda xoş ovqat yaradıb. Uşaqların muzey və tarixi-memarlıq abidələrinə ekskursiyaları davam edir.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 531